Forumda Azərbaycanın və Fransanın ali təhsil sistemlərində prioritet istiqamətlər, iki ölkənin təhsil ocaqları arasında əməkdaşlığın genişləndirilməsi yolları müzakirə edilib.

Tədbirdə çıxış edən "ADA"-nın rektoru Hafiz Paşayev bildirib ki, forumun məqsədi Fransanın ali təhsil ocaqları haqqında daha dolğun məlumat əldə etməkdir. Forumun əhəmiyyətindən danışan "ADA"-nın rektoru həm Fransa, həm də Azərbaycan tələbələrinin bu forumdan yararlanacağına ümidvar olduğunu qeyd edib.

H.Paşayev xalqlarımız və dövlətlərimiz arasında səmimiyyət üzərində qurulmuş əlaqələrdən, siyasi, iqtisadi və mədəni sahələrdə səmərəli əməkdaşlıqdan danışıb. Ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirən rektor "ADA" ilə bir çox ölkələrin universitetləri arasında əməkdaşlığın genişləndiyini nəzərə çatdırıb.

Tədbirdə çıxış edən təhsil nazirinin müavini Ceyhun Bayramov Azərbaycanda təhsil sahəsində həyata keçirilən layihələrdən, azərbaycanlı gənclərin xarici ölkələrdə təhsil almasına göstərilən dövlət qayğısından və bu sahədə görülmüş işlərdən söhbət açıb. Nazir müavini bildirib ki, təhsil sahəsinin inkişaf etdirilməsi ölkə rəhbərliyi üçün prioritet məsələlərdən biridir. Azərbaycanda digər sahələrdə olduğu kimi, təhsil sektorunda da mühüm layihələr həyata keçirilir və uzunmüddətli dövlət proqramları hazırlanır.

Təhsil nazirinin müavini qeyd edib ki, ölkə Prezidenti cənab İlham Əliyevin 2007-ci il 16 aprel tarixli sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" uğurla həyata keçirilir. İstedadlı gənclərimizin xaricdə təhsilinin təşkili istiqamətində vahid sistemin yaradılmasını nəzərdə tutan Dövlət Proqramı çərçivəsində bu günədək 2612 azərbaycanlı gənc dünyanın müxtəlif ölkələrinin qabaqcıl ali təhsil müəssisələrində təhsil almaq üçün xaricə göndərilib. Ümumilikdə, təhsil sahəsində həyata keçirilən tədbirlər iqtisadiyyatın inkişaf etdirilməsi ilə yanaşı, güclü kadr potensialının formalaşmasında da mühüm rol oynayır.

Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Paskal Mönye ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığı daha da genişləndirməyin əhəmiyyətinə toxunub, bu münasibətlərin gələcək inkişafı baxımından belə tədbirlərin mütəmadi təşkil olunmasının vacibliyini vurğulayıb.

Fransanın Azərbaycan ilə əməkdaşlığı daha da möhkəmləndirmək əzmində olduğunu diqqətə çatdıran səfir, birgə əməkdaşlıq üçün böyük imkanların olduğunu söyləyib.

Tədbirdə "ADA" Universiteti və Fransanın İESEG Menecment İnstitutu arasında Anlaşma Memorandumu imzalanıb.

Forumun aprelin 5-də təhsil sərgisi ilə davam etdirilməsi nəzərdə tutulub. Sərgidə tələbələr Fransada təhsil imkanları, mövcud təqaüdlər barədə məlumat əldə edəcəklər. Eyni zamanda, forum çərçivəsində Fransanın ali məktəblərini bitirmiş azərbaycanlı məzunlarla görüş keçiriləcəkdir.